# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 10 (1671) 31 may 2018 - ci il Qiymәti 50 qәpik


# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbul təşkil olunub

## Prezident İlham Əliyev rəsmi qəbulda iştirak edib

**Mayın 28-də Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbul təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər.

Azərbaycanın dövlət himni səsləndirildi.

Dövlətimizin başçısı rəsmi qəbulda nitq söyləyərək Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını tarixi hadisə adlandırdı: "İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır. Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır. Bir neçə il bundan əvvəl mənim Sərəncamımla Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Xalq Cümhuriyyətinin qurucularının adları əbədiləşdirildi. Bu il isə Azərbaycanda "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunmuşdur və həm ölkəmizdə, həm də bir çox xarici ölkələrdə bu yubileyi qeyd edərək biz böyük tədbirlər keçirmişik, keçiririk və ilin sonuna qədər bu tədbirlər keçiriləcəkdir".

X X X

Rəsmi qəbul konsert proqramı ilə davam etdi.



## BU SAYIMIZDA




Böyük Elmi Şurada 2






Professor Rafiq Əsgərovun 85 illiyinə həsr olunmuş tədbir 3





FAKÜLTƏLƏRDƏ TEC-İN KONFRANSLARI KEÇİRİLDİ 4





Ben-Qurion ilə ATU əməkdaşlarının birgə seminarı 3

# BÖYÜK ELMİ ŞURADA

**Mayın 29-da Böyük Elmi Şuranın genişləndirilmiş iclasını açan universitetin rektoru, professor Gəray Gəraybəyli əvvəlcə şura üzvlərini və professor-müəllim heyətini, tələbələri Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təbrik etdi, xalqımıza, ölkəmizə daha böyük tərəqqi arzuladı.**

Bundan sonra iclasın gündəliyini diqqətə çatdıraraq "Azərbaycan Tibb Universitetində 2017/2018-ci tədris ilində Buraxılış Dövlət Attestasiyasına və yaz semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti, imtahanların mütəşəkkil keçirilməsində kollektivin vəzifələri" barədə hesabat məruzəsi ilə çıxış etmək üçün sözü tədris və müalicə işləri üzrə prorektor, professor Sabir Əliyevə verdi.

Ölkəmiz üçün müasir düşüncəli və rəqabət qabiliyyətli insan kapitalının formalaşdırılmasında ən vacib təhsil sahəsi olan ali təhsilin xüsusi əhəmiyyət daşıdığını vurğulayan prorektor bildirdi ki, rektorluq, tədris hissəsi və fakültə dekanlıqları tələbələrin dərsə davamiyyətini gündəlik olaraq diqqətdə saxlayıb: "Tədris binalarında və klinik bazalarda vaxtaşırı reydlər keçirilməklə, tələbələrin dərsə davamiyyəti isə dekanlıqların və rektorluq şurasının bütün iclaslarının müzakirə predmeti olmuş, ayrı-ayrı fakültələrin elmi şuralarında semestr ərzində bir neçə dəfə müzakirəyə çıxarılmışdır. Əsasən universitetdə təhsil alan tələbələrin böyük əksəriyyətinin dərsə davamiyyəti qənaətbəxşdir. Lakin bir qrup tələbə "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın imkan verdiyi həddə qədər - fənn üzrə 25%-ə qədər dərs buraxmağa başlamışlar".

Məruzəçi uzun illərdən bəri Tibb Universitetinin təhsil proqramında mövcud olan ənənəvi bir problemə də toxundu: " Bu problem ondan ibarətdir ki, müxtəlif fənlərdə öyrədilən mövzular təkrarlanır. Bu ilk növbədə fənlər üzrə tədris proqramının tərtibatı və təhsil proqramına daxil olan fənlər arasında əlaqələrin çox zəif olması ilə əlaqəlidir, yəni hər hansı bir fənnin proqramı tərtib edilərkən əvvəlki fənn proqramları nəzərə alınmır. Bunu aradan qaldırmaq üçün, eləcə də təhsil proqramlarından istifadəni asanlaşdırmaq üçün Azərbaycan Tibb Universitetinin Təhsil Proqramı kitab şəklində nəşr edilmiş və kafedralara paylanılmışdır".

S.Əliyev onu da qeyd etdi ki, kredit sistemi ilə təhsil alan tələbələrin imtahanları universitetdə yaradılmış Virtual Test Mərkəzinin köməyi ilə mərkəzləşdirilmiş şəkildə kompyüter vasitəsilə test üsulu ilə aparılır: "Cari tədris ilinin yaz semestrinin imtahan sessiyası da kredit sistemi ilə təhsil alan tələbələr üçün həm semestr, həm də dövlət imtahanları kompyüter vasitəsilə test üsulu ilə həyata keçiriləcəkdir. Universitetin axırıncı kurs tələbələri dövlət imtahanı qabağı son sessiya imtahanlarına başlamışlar. Bu günə olan məlumatlara görə, imtahana buraxılanlardan 19 nəfər imtahanlarda iştirak etməmiş, 4 nəfər imtahana buraxılmamışdır. Belə demək mümkünsə, kompyterlər vasitəsilə test üsulu ilə imtahanların aparılmasında onların hazırlıqlarına müvafiq olmuşdur. Qeyd etməliyəm ki, cari tədris ilindən I kursdan başlayaraq kompyüter vasitəsilə test üsulu ilə imtahanların aparılmasında müəyyən dəyişikliklər edilmişdir. Belə ki, sualların sayı 50-dən 25-ə endirilmişdir. Hər tələbəyə 10 açıq sual təqdim olunacaq ki, bu da tələbədən gizli saxlanılır və çalışırıq ki, tələbələrin imtahanda qazandığı nəticələr reallığa daha yaxın olsun, başqa sözlə desək, "əzbərçilikdən real biliyə" devizini həyata keçirək.

Çıxışında xarici ölkələrdən universitetimizdə təhsil almaq üçün müraciət edən tələbələrin sayının ilbəil artmasına da toxunan natiq dedi ki, 2017/2018-ci tədris ilinin II semestrində ATU-da 23 ölkədən 1159 nəfər tələbə (bu tələbələrdən 4 nəfəri-İordaniya vətəndaşları dövlət xətti ilə təhsil alır), hazırlıq kursunda isə 16 ölkədən 606 dinləyici təhsil alır. Bundan əlavə, universitetdə 1 nəfər ixtisasartırma kursunda, 30 nəfər rezidenturada və 5 nəfər isə magistraturada təhsil alırlar.

Rezidenturanın qəbul imtahanlarından da söz açan prorektor qeyd etdi ki, «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununun qəbulundan sonra tibb təhsili əsas və rezidentura təhsilinə ayrılmışdır: "Ənənəvi olaraq rezidenturaya qəbul imtahanları Dövlət Attestasiyasından sonra aparılırdı. Artıq bir neçə ildir ki, rezidenturaya qəbul imtahanları 2 mərhələdə aparılır və hər mərhələ 100 balla qiymətləndirilir. Cari tədris ili üçün I mərhələ - baza tibb fənləri üzrə 06 aprel 2018-ci ildə aparılmış, II mərhələ - klinik fənlər üzrə 2018-ci il iyul ayının 8-nə planlaşdırılır.

Rezidenturaya 2018-ci il qəbulu üçün 1096 nəfər sonuncu kurs tələbəsi və əvvəlki illərin məzunları müraciət etmişdir ki, onlardan 31 nəfəri xarici ölkədə təhsil müəssisələrini bitirənlərdir. Səhiyyə Nazirliyi ilə razılaşdırılaraq I mərhələ üzrə müsabiqə şərti 40 bal saxlanılmışdır. Sənəd verənlərin böyük əksəriyyəti universitetimizin məzunları və ya sonuncu kurs tələbələridir. Ən yüksək toplanan bal 84 bal olmuşdur".

Universitetdə 2018-ci il məzun buraxılışı və «Azərbaycan həkiminin andı»nın qəbulunun iyun ayının üçüncü ongünlüyünə təyin olunacağını söyləyən S.Əliyev çıxışının sonunda imtahanların mütəşəkkil qaydada keçiriləcəyinə, universitet kollektivinin bu məsul və çətin işin öhdəsindən bacarıqla gələcəyinə əminliyini bildirdi.

Məruzə ətrafında çıxış edən insan anatomiyası kafedrasının müdiri, professor Vaqif Şadlinski tədris prosesinə nəzarət, semestr ərzində imtahana hazırlıq, proqramların müəllimlərə paylanması, açıq dərslərin aparılması və ingilis dili qruplarında dərs deyən müəllimlərin sayının artırılması məsələlərinə toxundu.

Patoloji anatomiya kafedrasının müdiri, professor Ədalət Həsənov isə bir çox yeniliklərə yol açan test üsulunun daha da təkmilləşdirilməsinin, tələbələrin kitabdan, dərslikdən uzaq düşməməsinin vacibliyini söylədi.

Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının müdiri, professor Məhbubə Vəliyeva 1998-ci ildən 2 pilləli təhsil sisteminə keçən əczaçılıq fakültəsində qazanılan uğurlar və mövcud problemlərlə bağlı fikirlərini şura üzvləri ilə bölüşdü.

Ayrı-ayrı kurslar üzrə tələbələrin təkliflərini dinlədiklərini deyən II müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli kafedralardan gələn yekun qiymətləndirmədə çoxlu səhvlərin, düzəlişlərin olduğunu, hətta bəzi müəllimlərin yekun qiymətləndirmənin meyarlarını bilmədiklərini təəssüflə qeyd etdi.

Çıxışlarda səslənən fikirlərə münasibət bildirən rektor nitqinə ritorik bir sualla başladı: "Dekan deyir ki, cədvəlləri bu işi bacaran müəllimlərə verin. Ədalət müəllim deyir ki, rus dilində dərs deyən müəllimlər Azərbaycan dilində dərs deməkdən imtina edirlər. Mən sual vermək istəyirəm: adi cədvəli düzgün








doldura bilməyən və ya Azərbaycan dilində dərs aparmaq istəməyən müəllim XXI əsrdə Tibb Universitetində neyləyir? Nəyə görə biz və sizlər bu müəllimləri saxlayırıq? Bunların tələbələrə dərs deməyə mənəvi haqları çatırmı?"

G.Gəraybəyli tələbənin imtahandan xeyli vaxt sonra yekun nəticəni bilməsinin təəssüf doğurduğunu da vurğuladı. Qeyd etdi ki, gələn il I kursdan tələbə imtahan test mərkəzində imtahan verən zaman son düyməni basarkən artıq yekun nəticəni görəcək.

Yeni testlərdə açıq sualların 10-a çatdırılmasını irəliyə atılan böyük bir addım kimi dəyərləndirən rektor bununla kifayətlənmədiklərini, hər bir kafedranın təkliflərini eşitməyə hazır olduqlarını bildirdi. Gələn ildən tələbələrin qəbul sayının xeyli azalacağını da söyləyərək universitetin professor-müəllim heyətinin saxlanılması, maddi-texniki bazanın təkmilləşdirilməsi məqsədilə xarici tələbələrə daha böyük imkanlar yaradılacağını dedi: "Son 2 ildə xarici tələbələrin qəbulunu məhdudlaşdırırdıq. Artıq xarici tələbələrin qəbulunda da yenilik olacaq. Onlar internet üzərindən onlayn müsahibə yolu ilə universitetimizə qəbul ola biləcəklər".

Rektor tələbələrin dərsə gecikmə halları haqqında səslənən fikirlərə də aydınlıq gətirdi: "Şəxsən mənim fikrim budur ki, tələbə dərsə gecikməməlidir. Ancaq bu şərtlə ki, müəllimlər dərsə gecikməsin. Əgər müəllim özü auditoriyaya 15-20 dəqiqə gec girirsə, onun tələbəyə irad bildirməyə haqqı yoxdur".

Əsas prioritetin keyfiyyətin yaxşılaşdırılması olduğunu vurğulayan rektor bildirdi ki, Azərbaycan vətəndaşı həkimliyi burada qazanmalıdır: "Bu gün universiteti bitirən məzunların əsas problemlərindən biri onların praktiki vərdişlərinin zəif olmasıdır. Səhiyyə Nazirliyində gedən iclaslarda səslənən fikirlər də təsdiq edir ki, nəzəri cəhətdən məlumatlı olan məzunlarımız praktiki nöqteyi-nəzərdən bacarıqsızdır".

Cəmiyyətdə uşaq ölümlərinin haqlı olaraq çox mənfi qarşılandığını xatırladan G.Gəraybəyli pediatriya sahəsində böyük problemlərin yaşandığını da şura üzvlərinin nəzərinə çatdırdı.

Daxili nizam-intizamın möhkəmləndirilməsi üçün görülən tədbirlər haqqında da danışan rektor universitetdə İctimai Nəzarət Şurasının və nizam-intizam komissiyasının fəaliyyət göstərdiyini dedi: "Bütün kafedralara mənim xahişimlə müvafiq qurumların məsul şəxsləri gedəcək. Məqsəd tədris prosesini yaxşılaşdırmaqdır. Başqa qərəzli məqsədimiz yoxdur. Dərs yükünün düzgün bölünməsi prinsipinə əməl edilməlidir. Hansı müəllimin bacarıqlı, hansı müəllimin bacarıqsız olduğunu siz daha yaxşı bilirsiniz. Məsuliyyətimizi artırmalıyıq. Heç kəs rəhbərlikdən inciməsin. Ətrafınızda aparılan islahatlara baxın. Ölkə də, universitet də 30 il əvvəlki deyil. İstər tədris, istər qiymətləndirmə, istər tələbəyə yanaşma, istərsə də nizam-intizam prosesinə yeni baxış olmalıdır".

Universitetdə elektron sistemin tətbiqinə başlanması ilə əlaqədar tədris prosesində bəzi dəyişikliklər barədə də şura üzvləri məlumatlandırıldı.

Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Nadir Zeynalov ingilis dilində tədris aparan müəllimlər barəsində məlumat verərək bildirdi ki, müəllimlərin dil, bilik səviyyəsinin qiymətləndirilməsi məqsədilə aparılmış imtahanın birinci mərhələsi martın əvvəlində olmuşdur: "Müəyyən nəticələr var və indi həmin qiymətləndirmənin ikinci, yəni şifahi mərhələsi planlaşdırılır. Üzrlü səbəbdən birinci mərhələdə iştirak etməyən müəllimlərimiz qiymətləndirmənin hər iki mərhələsindən keçəcəklər. Qiymətləndirmənin ikinci mərhələsi iyun ayının 22-dən iyul ayının 2-dək istirahət və bayram günlərini çıxmaq şərti ilə 6 iş günü ərzində aparılacaq".

Qiymətləndirmənin iş vaxtı, günün birinci yarısında olacağını diqqətə çatdıran prorektor qeyd etdi ki, hər bir kafedra əməkdaşının qabaqcadan deyilmiş vaxtda işlədiyi binada imtahan verməsinə şərait yaradılacaq, digər bazalarda çalışan müəllimlər isə ayrıca dəvət ediləcək.

Universitetin hesabına dil kurslarının təşkil olunacağını da söyləyən prorektor imtahandan keçən müəllimlər üçün daha yüksək maaşın nəzərdə tutulduğunu dedi.

Elmi şuraya daxil olan müraciətlərə də baxıldı. Əczaçılıq fakültəsinin "Farmakoqnoziya və botanika" kafedrasının "Farmakoqnoziya", "Mikrobiologiya və immunologiya" kafedrasının "Tibbi mikrobiologiya və immunologiya", "Əmək gigiyenası və uşaq-yeniyetmələr gigiyenası" kafedrasının "Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı", "Rezidentura" şöbəsinin isə "Rezidentura və magistratura" adlandırılmasına razılıq verildi. Eyni zamanda gizli rəyin nəticəsi müsbət olan, düzəlişlərə ehtiyacı olmayan, eləcə də düzəlişlər edildikdən sonra müsbət rəy alan dərslik, dərs vəsaitləri və və metodik vəsaitlərin əlyazmaları təsdiqlənərək çapa tövsiyə edildi.

Böyük Elmi Şura elmlər doktoru işlərinin mövzusunu, elmi məsləhətçiləri, elmlər doktoru işində elmi məsləhətçilərin dəyişdirilməsini, elmlər doktoru işinin adında dəyişiklik edilməsini təsdiqləməklə və müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**Arif MƏMMƏDLİ**

# Professor Rafiq Əsgərovun 85 illiyinə həsr olunmuş tədbir

**Mayın 22-də görkəmli alim, əməkdar elm xadimi, insan anatomiyası kafedrasının professoru, tibb elmləri doktoru Rafiq Əsgərovun anadan olmasının 85 illiyinə həsr olunmuş tədbir keçirilib.**



Tədbiri giriş nitqiylə açan ATU-nun rektoru, professor Gəray Gəraybəyli yubilyarı təbrik edərək onu gözəl insan, hamımızın qayğıkeş müəllimi olmaqla yanaşı, həm də Azərbaycan Tibb Universitetinin canlı tarixi adlandırdı: "Rafiq müəllim 85 illik ömrünün 65 ildən çoxunu Tibb Universitetinə həsr edib. Bu uzun və şərəfli yolda Rafiq müəllim aspirantlıqdan başlayaraq kafedra müdiri vəzifəsinə qədər yüksəlib. O, uzun illər anatomiya kafedrasının müdiri olub. Həmçinin universitetimizin ictimai həyatında da böyük rol oynayıb, müxtəlif vaxtlarda fakültə dekanı və prorektor vəzifələrini icra edib".



Sözünə davam edən rektor görkəmli anatom-alimin 65 illik fəaliyyətinin dövlət tərəfindən də yüksək qiymətləndirildiyini deyib: "O, müxtəlif illərdə dəfələrlə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, eləcə də ATU-nun Fəxri fərmanları ilə təltif olunub, 2000-ci ildə "Tərəqqi" medalına, 2007-ci ildə isə "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb".

G.Gəraybəyli yubilyarla bağlı gənclik xatirələrini də bölüşüb: "Mən o zaman universitetin IV kursunda oxuyurdum. Məni bir neçə tələbə yoldaşımla birgə Ukraynaya Gənc Alimlər Konfransına göndərmişdilər. Oradan qalib olaraq qayıtdım. Bir müddət sonra mənə dedilər ki, prorektor Rafiq Əsgərov səni çağırıb. Həyəcan içində sizin qəbulunuza gəldim. Lakin siz məni gülərüzlə qarşıladınız, mənim bu uğurumu təbrik etdiniz. Bu, həqiqətən də bir tələbə üçün nə qədər sevindirici hal idi".

Sonra insan anatomiyası kafedrasının müdiri, professor Vaqif Şadlinski yubilyarın həyat və fəaliyyəti haqqında geniş məlumat verərək qeyd edib ki, Rafiq Əşrəf oğlu Əsgərov 1933-cü il may ayının 11-də Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açıb. 1941-ci ildə Bakıdakı 6 nömrəli orta məktəbdə təhsil alıb, 1951-ci ildə həmin məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub. Rafiq Əsgərov hələ III kurs tələbəsi olarkən, 1954-cü ildə ATİ-nin normal anatomiya kafedrasında laborant, institutun V kursunda oxuyarkən isə baş laborant vəzifələrində çalışıb. 1957-ci ildə institutu fərqlənmə diplomu ilə bitirən bu istedadlı gənc normal anatomiya kafedrasında aspiranturada saxlanılıb və oranı başa vurduqdan sonra kafedranın assistenti vəzifəsinə seçilib. 1985-ci ildə R.Əsgərov ATİ-nin operativ cərrahlıq və topoqrafik anatomiya kafedrasının müdiri vəzifəsinə seçilib. Rafiq müəllim 1995-ci ildə rektorun adına ərizə yazaraq könüllü olaraq kafedra müdirliyindən azad edilməsini xahiş edib. Onu da qeyd edim ki, o vaxtlar 65 yaşı tamam olmasına baxmayaraq, vəzifədən getmək istəməyənlər çox idi".

V.Şadlinskinin sözlərinə görə, gənclərin inkişafına müdrikliklə yanaşma qabiliyyətinə malik olan Rafiq müəllim 1995-2017-ci illərdə İnsan anatomiyası kafedrasının professoru vəzifəsində işləyib. O, uzun illər ATU-nun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurası sədrinin müavini vəzifəsini yerinə yetirib, 2008-2016-cı illərdə isə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert Şurasının üzvü olub. Qocaman alim 2017-ci ildən indiyə qədər İnsan anatomiyası kafedrasının məsləhətçi-professoru vəzifəsində çalışır.

V.Şadlinski çıxışında qeyd edib ki, Rafiq müəllimin ahıl yaşında da müəllim və tələbələr tərəfindən sonsuz məhəbbətlə sevilməsi və hörmətlə qarşılanması onun çoxillik elmi-pedaqoji fəaliyyətinin yüksəkliyindən xəbər verir: "Kafedramızın əməkdaşları hamımızın müdrik ağsaqqalı, professor Rafiq Əsgərovu anadan olmasının 85 illik şərəfli yubileyi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı diləyir, qarşısına qoyduğu planlarının ardıcıl olaraq həyata keçməsində yeni-yeni uğurlar arzulayır."

Rafiq Əsgərov ünvanına söylənilən xoş sözlər üçün universitetin rəhbərinə və kafedranın müdirinə, eləcə də tədbirdə iştirak edən hər kəsə dərin təşəkkürünü bildirib. Son illərdə publisistik oçerklərdən ibarət üç kitabının işıq üzü gördüyünü diqqətə çatdıran professor hələ çap olunmamış duzlu-məzəli yazı nümunələrini tədbir iştirakçılarına oxumağı da unutmadı.

Məlumat üçün bildirək ki, professor R.Əsgərov 200-dən çox çap olunmuş elmi əsərin, monoqrafiya, dərslik və dərs vəsaitlərinin, Anatomiya muzeyinə aid kitabçaların, onlarla elmi-kütləvi məqalələrin müəllifi və həmmüəlliflərindəndir. Yubilyar Azərbaycanda elmi anatomiyanın banisi K.Balakişiyev elmi məktəbinin yetirmələrindən və davamçılarındandır. Onun bilavasitə rəhbərliyi altında 10-dan çox tədqiqatçı doktorluq və namizədlik dissertasiyası müdafiə edib. R.Əsgərov Ümumittifaq Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyətinin VIII-XI qurultay və simpoziumlarının nümayəndəsi, keçmiş SSRİ və indiki MDB ölkələrində keçirilən elmi konfransların, eləcə də Cənubi Qafqaz Ölkələri Morfoloqlarının I-V konfranslarının, digər elmi forumların iştirakçısı və təşkilatçılarından olub.

**Mənsur ƏLƏKBƏRLİ**

# ATU-nun rektoru yeni qəbul olunan doktorant və dissertantlarla görüşdü

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli doktorant və dissertantlarla görüş keçirdi.**



Rektor G.Gəraybəyli elm sahəsinin əhəmiyyətindən söz açdı. O, qeyd etdi ki, bu çox çətin, eyni zamanda da böyük məsuliyyət tələb edən bir işdir: "Elm sahəsinə hər il yeni tələblər qoyulur. Məsələn, bu il fevral ayında Səhiyyə Nazirliyi, AMEA və ATU-nun birgə elmi konfransı keçirildi. Həmin konfransda bir çox elmi və təşkilati işlər müzakirə olundu. Tədbirdə bu gün tibb elminə qoyulan tələblərdən də danışıldı, hansı ki, əvvəlki illərdən çox seçilir. Məsələn, xarici dili yüksək səviyyədə bilmək, xarici ədəbiyyatdan, müasir metodlardan istifadə qaydaları, etik normalar kimi tələblər 5 il bundan əvvəl yox idi. Amma indi istənilən tədqiqat işi mütləq etik komitənin təsdiqi ilə aparılmalıdır. Kliniki tədqiqatlarda buna çox diqqət yetirilməlidir. Biz çalışacağıq ki, elmi adı olan adamın yüksək reytinqi, professional səviyyəsi olsun".

G.Gəraybəyli tədbir iştirakçılarını bu işdə aktiv olmağa çağırdı: "Universitetimizdə "Problem Komissiyası" yaradılıb. Hər bir doktorant və dissertant bu komitə qarşısında hesabat verəcək. Bundan başqa, hər il ATU-da gənc alimlərin konfransı keçirilir. Sizi bu konfranslarda iştirak etməyə dəvət edirəm".

ATU-nun elmi işlər üzrə prorektoru Rauf Bəylərov çıxış edərək, tədbir iştirakçılarının qarşısında duran vəzifələr haqqında geniş məlumat verdi.

Qeyd edək ki, bu il ATU-ya 26 doktorant, 24 dissertant qəbul olunub.

# Ben-Qurion ilə ATU əməkdaşlarının birgə seminarı

**Tədris-Cərrahiyyə Klinikasında İsrailin Ben-Qurion Universitetinin və ATU əməkdaşlarının birgə iştirakı ilə seminar keçirilib.**



İki gün davam edən seminarı açan universitetin beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Nadir Zeynalov İsrailin Ben-Qurion Universitetinin ATU ilə uzunmüddətli əməkdaşlığı tarixindən danışıb, hər iki universitetin bir sıra mötəbər tədbirlər keçirdiyini qeyd edib. Bugünkü tədbirin əsas mövzusunun yaşlı insanlarda neyrocərrahi, ortopedik xəstəliklər və onların xüsusiyyətləri ilə bağlı olduğunu bildirib. Sonra çıxış üçün söz Dr. Aleks Geftere verilib. O, "Yaşlı xəstələrdə onurğa sütunu cərrahiyyəsi", Dr. İsrael Melamed "Yaşı 70-dən yuxarı olan xəstələrdə neyrocərrahi müdaxilələr", ATU-nun neyrocərrahiyyə kafedrasının rezidenti Səbuhi Etibarlı "Osteoproz və vertebroplastika" mövzularında çıxış edib.

Növbəti gün seminar öz işini Tədris Terapevtik Klinikada davam etdirib. Məruzəçilərdən Dr. Yan Press "Yaşlı insanlarda demensiya", Dr. İlya Xazanov "İsraildə ambulator geriatrik yardımın təşkili", Tədris Terapevtik Klinikanın gerietriya şöbəsinin müdiri Azadə Ələkbərova " ATU-nun Tədris Terapevtik Klinkasında geriatrik pasiyentlərin statistik göstəriciləri" mövzularında çıxış ediblər. Mövzular iştirakçılar tərəfindən maraqla qarşılanıb və geniş diskussiya şəraitində başa çatıbdır.

Qeyd edək ki, məruzəçilərdən Aleks Gefler ilə Yan Press əslən Bakıdandırlar. İsrailin nüfuzlu univeristetlərindən hesab olunan Ben-Qurion ilə ATU arasında əməkdaşlığın genişlənmsi məhz onların sayəsində baş tutub.

**ATU-nun mətbuat xidməti**

# FAKÜLTƏLƏRDƏ TEC-İN KONFRANSLARI KEÇİRİLDİ

Azərbaycan Tibb Universitetində Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə keçirilən konfranslar tələbələr tərəfindən böyük maraqla qarşılanır. Növbəti belə konfranslardan biri də mayın 7-də II müalicə-profilaktika fakültəsinin Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə baş tutub. İki gün davam edən tədbirin 1-ci günü 17 təqdimat, 2-ci gün isə 18 məruzə dinlənilib. Fakültənin dekanı, dosent İsrail Məhərrəmbəylinin sədrliyi ilə keçirilən konfransda münsiflər heyətində ümumilikdə 14 nəfər təmsil olunub.





Münsiflər heyəti tərəfindən təqdimatlar nəzəri, terapevtik və cərrahi fənlər üzrə qiymətdirilərək yerlər müəyyənləşdirilib. Bütün iştirakçılar sertifikat, ilk yerləri tutanlar isə diplom və müxtəlif hədiyyələrlə təltif olunublar.

Nəzəri fənnlər üzrə I yeri Elanə Rzazadə, Xəyalə Sərkərova, II yeri Elnarə İsmayılova, İlahə Qəhrəmanova, Nigar Cəfərova, III yeri Zinayət Nəbiyeva, Pədimat Əhmədova, Fərhan Namazov, Mirxəzər İsmayılov, terapevtik üzrə I yeri Kamilə Qaraisalı, Adilə Əliyeva, II yeri Nihad Hüseynli, Rəsul Məmmədov, III yeri Yelmar Qaraşov, M.Cəfərli, Gülgəz Ələkbərova, cərrahiyyə üzrə I yeri Lamiyyə Əliyeva, Türkan Məmmədzadə, II yeri Ayan Abduləliyeva, Fidan Şabanova, III yeri Suğra İsmayılova, Leyla Qənbərova tutublar.

İsrail Məhərrəmbəyli açıqlamasında bildirib ki, universitetdə TEC konfranslarına maraq getdikcə artmaqdadır: *"Hər dəfə konfransa daha çox məruzənin təqdim olunması bunu sübut edir. Kəmiyyət artımı ilə yanaşı, araşdırmaların keyfiyyətində də irəliləyiş hiss olunur."*

**Əczaçılıq fakültəsinin Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə başlanan elmi konfrans bu dəfə fərqli formatda öz işinə başlayıb. Konferans iştirakçılarının diqqətinə tələbələrin hazırladığı elmi məruzələrlə yanaşı, posterlər də təqdim olunub**



TEC-in rəhbəri Nərgiz Məmmədova öz çıxışında bildirib ki, universitet rəhbərliyi TEC-in fəaliyyətinə daim diqqət göstərir və önəm verir. Bu konfransın təşkilinində əsas məqsədin istedadlı tələbələri üzə çıxarmaq, onları dəstəkləmək və elmə olan həvəslərini daha da artırmaq olduğunu qeyd edib: "Bu gün qalib olan 10 tələbə payızda universitet səviyyəsində keçirilən konfransa vəsiqə qazanacaqdır. Onların məqalələri ilk dəfə konfransın toplusunda dərc olunacaq. Hər il keçirdiyimiz konfransı müxtəlif şirkətlər dəstəkləyir. Bu konfrans bu dəfə "AzeriMed" şirkəti tərəfindən dəstək alıb".

O, konfransda çıxışların iki formatda - oral və poster formatda təqdim olunacağını qeyd edib.

Sonra əczaçılıq fakültəsinin dekanı, dosent Kamandar Yaqubov çıxış edərək bildirib ki, bu il universitet rəhbərliyinin təhsil sahəsinə göstərdiyi müstəsna diqqətin məntiqi nəticəsi olaraq, fakültə TEC-nə təqdim olunan məruzələrin sayı xeyli artıb. Konfransda əczaçılıq fakültəsi ilə yanaşı, I-II müalicə-profilaktika fakültələri tələbələrinin də oral və poster çıxışlarının dinləniləcəyini söyləyib.

Konfransda oral təqdimatda tələbələrdən Tükəz Əlizadənin "Azərbaycanda uğurlu sosial-iqtisadi inkişaf Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir", Mohammed Xalil Qasimin "DNT həyatın gizli sirri kimi", Hüseyn Kazımzadə və Süsən Abbasovanın "Veronica aquatica L. növündə flavonoidlərin spektrofotometriya üsulu ilə miqdarı təyini", Familə Hacıyevanın "Adi üzərlik (Peganium harmala) bitkisinin alkoloidlərinin ilkin tədqiqi", Tamilla Qəhrəmanzadə və Arzu Əliyevanın "Uzunyarpaq yarpız (Mentha lonqifolia L.) bitkisinin yarpağının anatomik və efir yağının anti-mikrob tədqiqi", Azər Əlizadənin "Adi göyrüş və tikanlı odotundan alınan bioloji aktiv qarışıqların hipoksiyaya uğramış heyvanların baş beyin strukturlarında və qanda antioksidant sistemin fermenti olan qlutation – S-transferazanın aktivliyinə təsiri", Günel İsgəndərovanın "Yüksək effektivli maye xromatoqrafiya üsulunun əczaçılıq analizində tətbiqi", Günel Qədimovanın "Bəzi optik fəal amin turşuların polyarimetriya ilə təyini", Aygül Məmmədlinin "Türkiyə və Avropa dövlətlərinin tibb universitetlərində latın dilinin tədrisi", Qəmər Məmmədbəylinin "Quruluş və bioloji fəallıq arasında asılılıq", Seyidağa Abbaszadənin "Bəzi Bakı apteklərində mercandayzing prinsipi və qaydalarının tətbiqi səviyyəsinin öyrənilməsi", Arzu Fərmanlının "Avropanın Vitali-Moren reaksiyası əsasında spektroskopiya ilə təyini" və Elvin Nağıyevin "Qısagövdə esparest bitkisinin bəzi farmakoqnostik tədqiqi" ilə bağlı hazırladıqları məruzələr və poster çıxışlar mütəxəssislərin böyük marağına səbəb olub. Konfrans geniş diskussiya və sual-cavab şəraitində öz işini başa çatdırıb. Sonda qalib tələbələrə sertifikatlar təqdim olunub.

**❍ I müalicə-profilaktika fakültəsinin təşkil etdiyi konfrans bir neçə gün davam edib və 19 kafedra üzrə 44 tələbə elmi işini təqdim edib.**



Toplantının əvvəlində açılış nitqi ilə çıxış edən fakültə dekanı Qorxmaz Əhmədov tələbələrin özünün inkişafı, bilik və bacarıqlarını artırması baxımından TEC konfranslarının müstəsna əhəmiyyət kəsb etdiyini bildirib. O, tələbələri daha aktiv olmağa, aktual əhəmiyyətli müxtəlif mövzuları araşdırmağa çağırıb.

Konfrans zamanı təqdim edilən elmi işlərdən 14-ü nəzəri, 19-u terapevtik, 11-i isə cərrahiyyə kafedralarına aid olub. Tələbələr maksimum 5 dəqiqə ərzində məruzələrini təqdim ediblər. Daha sonra məruzələr ətrafında çıxışlar olub.

Nəzəri kafera üzrə konfransda I yerə Fəridə Şaiqzadə (qr. $171^a$), II yerə Cavid Mustafazadə (qr. $166^b$) və Zinyət Əhmədzadə (qr. $617^{a4}$), III yerə isə Ahmet Özseven (qr. $317^{a26}$) layiq görülüb.

Terapiya bölməsi üzrə keçirilən konfransda I yerə Türkan Tağıyeva (qr. $2^a$), Pəri Məhərrəmova, II yerə Akif Qurbanov (qr. $275^a$), III yerə isə Dursun Əliyev (HTF), Fidan Əlizadə ($36^a$) layiq görüldülər.

Cərrahiyyə bölməsi üzrə isə I yeri Selcan Paşabəyli (qr 137), II yeri Məhərrəm Alimli (qr. $273^a$), III yeri Nurlan Əliyev (qr. $141^a$) tutub.

Qaliblərə diplom və sertifikatlar təqdim edilib, kitablar hədiyyə olunubdur.

**• İctimai səhiyyə fakültəsinin tibbi profilaktika ixtisası üzrə 42-ci Tələbə Elmi Cəmiyyətinin konfransı keçirilib. Konfrans işini bölmələr üzrə davam etdirib**



Fakültənin dekanı, t.ü.e.d., dosent Anar Ağayev müasir dövrdə savadlı elmi kadrlara böyük ehtiyac olduğunu söyləyərək, xalqımızın sağlamlığının qorunmasında peşəkar və milli kadrların hazırlanması məqsədilə həm universitet, həm dövlətimiz tərəfindən həyata keçirilən proqramların xüsusi əhəmiyyət daşıdığını və gənc alimlərin, istedadlı tələbələrin yetişdirilməsi istiqamətində TEC-in fəaliyyətinin böyük rol oynadığını vurğuladı.



Sonra TEC-in konfransı işinə başladı.

Fakültə TEC-nin elmi rəhbəri dosent F.Tağıyeva konfrans iştirakçılarını təşkilat komitəsinin üzvləri və konfransın gündəliyi ilə tanış etdi.

Fakültə TEC-nin sədri S.Babayeva konfransın proqramı üzrə məruzəçiləri və onların elmi rəhbərlərini elan etdi. Tələbələrin gigiyenanın müxtəlif sahələrinə həsr olunmuş elmi-tədqiqat işləri aktuallığı və sosial yönümlülüyü baxımından tədbir iştirakçlarının diqqətini cəlb etdi.

Sonda münsiflər heyətinin qiymətləndirməsinə əsasən, V kurs, $660^a$ qrup tələbələri Ülkər Qaçayeva, Nigar Əhmədova, II kurs, 650-ci qrup tələbəsi Qabil Qocayev, IV kurs, 620-ci qrup tələbələri Dünya Bayramova, Gülər Məhərrəmova, IV kurs, $618^a$ qrup tələbəsi Manya Abbasova, IV kurs, 620 qrup tələbəsi Sevda Davudova, V kurs $660^b$ qrup tələbəsi Adil Əliyev, V kurs, 661 qrup tələbəsi Günay İsayeva, biokimya bölməsi üzrə II kurs, $640^a$ qrup tələbəsi Ləman Quliyeva, VI kurs, $602^b$ qrup tələbəsi Hüsniyyə Mahallı, II kurs, $361^b$ qrupunun tələbəsi Bibixanım Mirzəyeva, mikrobiologiya və immunologiya, epidemiologiya, yoluxucu xəstəliklər və ftiziatriya bölməsi üzrə III kurs, $627^b$ qrup tələbəsi Taleh Qasımov, V kurs, $660^b$ qrup tələbəsi Adil Əliyev, III kurs 628 qrup tələbələri Xalidə Nəbiyeva, Aygün Qurbanlı, V kurs $661^b$ qrup tələbələri Bahar Quluzadə, Leyla Quliyeva, IV kurs $1111^a$ qrup tələbəsi Ayxan Səfərov, IV kurs $36^b$ qrup tələbəsi Dilbər Dünyamalıyeva, V kurs $660^b$ qrup tələbələri Şəfa Məmmədova, Güləbatın Əhmədova, II kurs, $801^a$ qrup tələbəsi Tamilla Qəhrəmanzadə diplomlara layiq görülüblər. Digər iştirak edən tələbələrə isə sertifikatlar təqdim olunub.

Konfransın işində fəal iştirak edən müəllimlər də diplomlarla təltif olunublar.

**❍ Tədris Terapevtik Klinikasında I müalicə-profilaktika fakültəsinin nəzəri bölməsi üzrə Tələbə Elmi Cəmiyyətinin konfransı keçirilib.**



Konfransı giriş sözü ilə I müalicə-profilaktika fakültəsinin dekanı, dosent Qorxmaz Əhmədov açaraq münsiflər heyətini tədbir iştirakçılarına təqdim edib və konfransda iştirak edən tələbələrə uğurlar arzulayıb. Konfransda fakültə üzrə TEC-in rəhbəri, professor Rafiq Təhməzov və fakültə üzrə TEC-in sədri, III kurs tələbəsi Lamiyyə Adışirinli iştirak ediblər. Fakültə dekanı Q.Əhmədov iştirakçıların elmi işlərini təqdim edərək tələbələri çıxışa dəvət edib.



Konfransda müxtəlif elmi mövzulara aid 14 məruzə dinlənilib. Münsiflər heyətinin rəyinə əsasən, $171^a$ qrup tələbəsi Fəridə Şaiqzadə, $166^b$ qrup tələbəsi Cavid Mustafazadə, $617^{a-4}$ qrup tələbəsi Zinyət Əhmədova və $317^{a-26}$ qrup tələbəsi Əhməd Özsevən diplomlarla, digər tələbələr isə sertifikatlarla təltif olunublar.

**ATU-nun mətbuat xidməti**

# Ulu öndər Heydər Əliyevin 95 və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş I elmi-praktik konfrans

**Mayın 18-də Patoloji fiziologiya kafedrasında II müalicə profilaktika fakültəsinin Tələbə Elmi Cəmiyyəti ümummilli lider Heydər Əliyevin anadan olmasının 95, Azərbaycan Xalq Cümhuriyyətinin isə 100 illiyinə həsr olunmuş konfrans keçirib.**





Konfransı açan ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev Ulu Öndərin təhsilə, gənc kadrların hazırlığına böyük əhəmiyyət verdiyini, yetişməkdə olan nəslin milli ruhda tərbiyə olunmasına çalışdığını söyləyib. Bildirib ki, gənclərimizin Azərbaycanda ehtiyac olan ixtisaslar üzrə keçmiş SSRİ məkanında yüksək təhsil alaraq peşəkar kadrlar kimi Vətənə qayıtması ulu öndərin adı ilə bağlıdır: "Həmişə həmin kadrlarla, tələbələrlə görüşlər təşkil edərdi. Onlara tövsiyəsi o olardı ki, heç vaxt Azərbaycanı təmsil etdiklərini unutmasınlar. Təhsillərini başa vurduqdan sonra mütləq Azərbaycana qayıtsınlar. Belə də olurdu. Həmin kadrlar ölkəmizdə çox vacib məsələlərin həllində birbaşa iştirak edirdilər".

S.Əliyev sonrakı dönəmlərdə də azərbaycançılıq ideologiyasını daim önə çəkən Heydər Əliyevin dilimizin dövlət dili statusu qazanması, milli-mənəvi dəyərlərimizin qorunması, müstəqilliyimizin yenidən bərpası və möhkəmləndirilməsindəki əvəzsiz xidmətlərindən söhbət açıb. Qeyd edib ki, universitetimizin maddi-texniki bazasının möhkəmləndirilməsi və universitet klinikalarının yaradılması da ulu öndərin xüsusi diqqət və qayğısı sayəsində mümkün olmuşdur.

S.Əliyev həkimlərin əməyini həmişə yüksək qiymətləndirən ulu öndərin daim gənclərimizin yanında olmasını, onları dəstəkləməsini də diqqətə çatdıraraq ölməz əməlləri ilə xalqımızın yaddaşında əbədi yaşayacağını deyib.

Sonra konfransda elmi tədqiqat işi ilə məşğul olan tələbələrin 16 məruzəsi dinlənilib. III kurs, $209^b$ qrup tələbəsi Elanə Rzazadə, III kurs, $11^a$ qrup tələbəsi Xəyalə Sərkərova, III kurs, $4^b$ qrup tələbəsi Əlisahib Mürşüdlü, III kurs, $21^a$ qrup tələbələri İlahə Qəhrəmanova və Nigar Cəfərovanın çıxışları öz aktuallığına və mövzu seçiminə görə fərqləndiklərindən münsiflər heyəti tərəfindən daha yüksək qiymətləndirilib.

# "Uşaqlarda metabolik xəstəliklər ilə bağlı epilepsiyalar" mövzusunda seminar keçirildi

**Mayın 17-də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında "Uşaqlarda metabolik xəstəliklər ilə bağlı epilepsiyalar" mövzusunda seminar keçirilib.**




Seminarı giriş sözü ilə açan direktorun elm və tədris işləri üzrə müavini Adil Nuriyev iştirakçıları salamlayaraq, onlara uğurlar arzulayıb.

Daha sonra professor Şərif Mahalov çıxış edərək, mövzunun aktuallığını və epilepsiyanın öyrənilməsində Azərbaycanda da savadlı mütəxəssislərin olduğunu vurğulayıb.

Seminarın davamında İstanbul Medipol Universiteti Xəstəxanasının Pediatrik Nevrologiya şöbəsinin həkimi, professor Kürşat Aydın "Uşaqlarda metabolik xəstəliklər ilə bağlı epilepsiyalar" mövzusunda çıxış edib.

Son on ildə daha çox metabolik xəstəliklərlə məşğul olduğunu deyən, professor, bunun uşaqlar arasında geniş yayıldığını bildirib.

"Epillepsiya nevrologiyanın ən sıx rast gəlinən bir problemidir. Bu xəstələrdə problemləri müəyyənləşdirdiyimiz zaman həkim olaraq çox sevinirik. Çünki elə insanlar var ki, bu xəstəliyin müayinə və müalicəsi onlarda çətin olur. Bu zaman ağlımıza gələn ilk şey metabolik problemlərlə bağlı olur. Amma yüzlərlə metabolik xəstəlik olduğu üçün bu zaman diqqətli olmaq lazımdır. Epilepsiya zamanı arxasında metabolik xəstəliklər dayanan bir çox problemlər ortaya çıxa bilər".

O qeyd edib, son vaxtlar uşaqlar arasında gec danışma problemi çox yayılıb.

"Bədəndə hansısa maddənin çatışmazlığı uşaqlar arasında bu kimi problemlərə yol açır. Bəzən valideynlər buna o qədər də ciddi fikir vermirlər. Əgər atada, anada bu problem olubsa, uşaqda da olması normaldır prinsipi ilə yanaşırlar. Amma onlar bu zaman çox diqqətli olmalı və vaxtında həkimə müraciət etməlidirlər".



K.Aydın metabolik xəstəliklərin müalicə olunan və olunmayan növləri haqqında da məlumat verib.

# "Azərbaycan Tələbə Kartı" layihəsi başlayıb



**Azərbaycan Tibb Universitetində "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı çərçivəsində "Azərbaycan Tələbə Kartı" layihəsi həyata keçirilir.**

Dövlət Proqramının 6.7.1. "Azərbaycan Tələbə Kartı"nın tətbiq edilməsi və gənclərin vahid beynəlxalq güzəştli kartlar sisteminə qoşulmasına şərait yaradılması" bəndinə əsasən, 29.05.2012-ci il tarixdə Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Xəzər İnvestisiya Mərkəzi tərəfindən verilən kartlar Azərbaycanda təhsil alan bütün tələbələr üçün nəzərdə tutulub. Tələbə kartları tələbələrə pulsuz təqdim olunur. Tələbələr bu kart vasitəsi ilə EYCA-nın endirim şəbəkələrində imtiyaz və güzəştlərdən istifadə edə biləcəklər. Endirim şəbəkəsinə təkcə Azərbaycandan deyil, Avropanın 30-dan çox ölkəsindən 80.000-dən çox müxtəlif məişət və iaşə obyektləri daxildir.

"Azərbaycan Tələbə Kartı" çərçivəsində Gənclər və İdman Nazirliyi ilə yanaşı, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı ilə də əməkdaşlıq edilir. Bu layihə zamanı Azərbaycanda təhsil alan bütün tələbələr "Azərbaycan Tələbə Kartı" əldə etməklə yanaşı, ölkə üzrə endirim şəbəkəsinin qeyd olunduğu kataloqları da əldə edirlər (www.eyca.az).

Qeyd edək ki, sözügedən kartların qeydiyyatı və tələbələrə paylanılması ATU TGT tərəfindən həyata keçirilir. Ötən il qeydiyyatdan keçən 700 tələbədən 400 nəfərinə kartlar təqdim olunub. Bu il də 6 maydan etibarən qeydiyyat başlayıb. Qeydiyyat üçün yaradılan mərkəzdə təşkilatın fəal üzvləri prosesi təmin edirlər. Mərkəz universitetin əsas korpusunun 5-ci mərtəbəsində, 525-ci otaqda fəaliyyət göstərir. Qeydiyyatdan keçmək üçün tələbə bileti və şəxsiyyət vəsiqəsi tələb olunur.

# Komandamız beynəlxalq yarışda uğur qazandı




**Rusiya Federasiyasının Stavropol şəhərində Stavropol Dövlət Tibb Universitetinin təşkilatçılığı ilə tibb tələbələrinin V Beynəlxalq "Asklepiy 2018» olimpiadası keçirilib. Olimpiadada ATU-nun "AMU fires» ("ATU alovları") adlı komandası da iştirak edib.**

Komandanın tərkibinə Beynəlxalq əlaqələr şöbəsinin Mübadilə proqramları üzrə və ATU-nun beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Müşfiq Orucov (rəhbər), Mirzeynal Hüseynov (II MPF, V kurs, komandanın kapitanı), Başir Bağırov (I MPF, VI kurs), Emin Eyvazov (II MPF, V kurs), İsmayıl Əliyev (I MPF, V kurs), Məhərrəm Alimli (II MPF, V kurs) və Şamil Rəşidovdan (I MPF, III kurs) daxil olub.

Olimpiadanın əsas mövzusu müxtəlif bədbəxt hadisələr və qəzalar zamanı həkiməqədər ilkin tibbi və təxirəsalınmaz yardımın göstərilməsi olub. Turnirdə Azərbaycan, Çin və Rusiyanın müxtəlif şəhərlərinin tibb universitetlərini təmsil edən 15 komanda yarışıb. Olimpiadanın 1-ci gününün tapşırıqları "Tibbi biatlon", "Situasiya məsələlərinin həlli", "Kapitanların müsabiqəsi", "Universitet haqqında təqdimat" və "Ekstremal kvest", 2-ci günün tapşırıqları isə "Fövqəladə vəziyyətdə təcili və təxirəsalınmaz yardımın göstərilməsi", "Hərbi əməliyyatlar zonasında təxirəsalınmaz yardımın göstərilməsi" olub. Qeyd etmək lazımdır ki, sonuncu tapşırıqlar hərbi poliqonda və hava limanında həyata keçirilib.

Universitetimizin komandası olimpiadada yaxşı nəticə göstərib, "Ən yaxşı psixoloji yardımın göstərilməsi" nominasiyasında Fəxri Fərmana layiq görülüb.

Tədbirin bağlanış mərasimində Stavropol Dövlət Tibb Universitetinin rektoru, professor V.İ.Koşel ATU-nun rektoru, professor G.Gəraybəyliyə komandamızın bu tədbirdə iştirakını təmin etdiyi və universitetlərimiz arasında əməkdaşlıq münasibətlərini dəstəklədiyi üçün təşəkkürünü bildirib və minnətdarlıq məktubu təqdim edib.

# ATU-nun tələbələri diplomaqədər müddətdə işləyə biləcəklər



**ATU-nun yuxarı kurs tələbələri bundan sonra elə universitetin klinikalarında və bir sıra müalicə müəssisələrində orta tibb təhsilli işçi vəzifələrində işləyə biləcəklər.**

Bu haqda Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin Səhiyyə Nazirliyinə müraciətinə cavab məktubunda bildirilib. Məktubda qeyd olunub ki, Azərbaycan Respublikasının "Əhalinin sağlamlığının qorunması haqqında" qanununun 46-cı maddəsinə əsasən, ali tibb və əczaçılıq təhsilini başa vurmamış şəxslər müvafiq icra hakimiyyətinin müəyyənləşdirdiyi qaydada orta tibb təhsilli işçi vəzifəsində tibbi və əczaçılıq fəaliyyəti ilə məşğul ola bilərlər. Odur ki, Səhiyyə Nazirliyi ATU tələbələrinin bu vəzifələrdə işləməsinə icazə verib.

Bununla bağlı, müalicə-profilaktika fakültəsinin tələbələri III, stomatologiya, ictimai səhiyyə və əczaçılıq fakültələrinin tələbələri isə IV kursu bitirdikdən sonra Azərbaycan Tibb Universitetinin klinikalarında və universitetin bazası olan müalicə müəssisələrində müvafiq orta tibb təhsilli işçi vəzifələrində (diplomaqədər) işə qəbul oluna bilərlər.

**ATU-nun mətbuat xidməti**

# Alicənab insan, ziyalı və pedaqoq

**Histologiya, embriologiya və sitologiya kafedrasının dosenti, biologiya elmləri üzrə fəlsəfə doktoru Mehtiyev Maqbet Rəhim oğlunun bu günlərdə anadan olmasının 80 illiyi qeyd olunur.**

Maqbet Mehtiyev 1938-ci il iyunun 1-də Azərbaycanın qədim şəhəri Gəncədə ziyalı ailəsində anadan olmuşdur.

Maqbet Rəhim oğlu Mehtiyev orta təhsilini Gəncə şəhərində bitirdikdən sonra indiki Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına daxil olur. 1961-ci ildə həmin təhsil ocağını fərqlənmə diplomu ilə bitirərək şərəfli bir ömür yoluna qədəm qoymuşdur.

1966-cı ildə Moskva şəhərində namizədlik dissertasiyasını professor S.Boqalyubskinin elmi rəhbərliyi ilə uğurla müdafiə edib, biologiya elmləri namizədi dərəcəsi adına layiq görülmüşdür.

1970-ci ildə Azərbaycan Tibb Universitetinin histologiya, embriologiya və sitologiya kafedrasına assistent vəzifəsinə qəbul olunmuşdur və həmin ildən taleyini bu təhsil ocağına bağlamışdır.

1973-cü ildə həmin kafedrada baş müəllim, 1990-cı ildən hal-hazıradək dosent vəzifəsində çalışır.

Bu illər ərzində o, özünü əməksevər, hərtərəfli hazırlıqlı pedaqoq, histologiya, embriologiya və sitologiya sahəsində isə ixtisaslı mütəxəssis kimi göstərmişdir. Maqbet müəllim tələbələrin hər birinə individual və qayğıkeş münasibət göstərir. Dərs dediyi tələbələr universiteti bitirdikdən sonra da onu unutmurlar, görüşünə gəlir və onun dəyərli məsləhətlərinə qulaq asırlar.



Tibb Universitetində işlədiyi müddətdə minlərlə tələbə onun mühazirələrindən bəhrələnərək ölkəmizdə, eləcə də xarici dövlətlərdə bacarıqlı həkim kimi fəaliyyət göstərir, insanların sağlamlığı keşiyində dayanırlar.

M.Mehtiyev 1973-cü ildə 1 saylı Moskva Tibb Universitetində (Seçenov adına Tibb Akademiyası) və 1984–cü ildə Ukrayna Tibb Universitetində təkmilləşdirmə kursları keçmişdir.

Uzun illər keçsə də, indi artıq tanınmış həkimlər olan həmin tələbələr, öz sevimli müəllimləri ilə görüşdə o maraqlı günləri xoş təəssüratlarla xatırlayırlar.

Maqbet müəllim bir neçə dərslik və elmi məqalələrin müəllifidir.

O, kafedramızın gənc müəllimlərinin elmi işlərinin mudafiəsi zamanı opponent olaraq çıxışlarında aspirant və dissertantlara öz dəyərli tövsiyələrini vermişdir.

Yaşının ən müdrik dövrünü yaşayan, öz şəxsiyyəti və keçdiyi ömür yolu ilə kamillik zirvəsinə ucalan Maqbet müəllimə möhkəm can sağlığı, pedaqoji fəaliyyətində müvəffəqiyyətlər arzu edirik.

*Histologiya, embriologiya və sitologiya kafedrasının kollektivi*

# Bilyini tələbələrlə paylaşan peşəkar

**Vəli Yadulla oğlu Əsmətov 1963-cü il iyunun 2-də Yardımlı rayonunun Çayüzü kəndində dünyaya gəlib. 1980-cı ildə doğma kəndində orta məktəbi bitirdikdən sonra N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun I müalicə-profilaktika fakültəsinə daxil olub.**

Lakin təhsilini dayandıraraq öz xahişilə hərbi xidmətə yollanan V.Əsmətov 1981-1984-cü illərdə Avropa dövlətlərinin ərazisində kəşfiyyatçı kimi hərbi xidmət keçmişdir. Nümunəvi xidməti, peşəkarlığı və kəşfiyyatçılar arasında keçirilən normativ yarışda I yer tutduğuna görə keçmiş SSRİ-nin Müdafiə Naziri, Sovet İttifaqi Marşalı D.Ustinovun adından Azərbaycan MK-nə, Yardımlı rayon partiya komitəsinə və təhsil aldığı Azərbaycan Tibb İnstitutuna təşəkkür məktubu göndərilmiş, özünə isə keçmiş SSRİ-nin ərazisində istənilən ali məktəbdə təhsil almaq üçün göndəriş vərəqəsi verilmişdir.

Hərbi xidməti başa vurduqdan sonra ali təhsilini davam etdirmiş və 1990-cı ildə I müalicə-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirərək farmakologiya kafedrasında baş laborant vəzifəsində saxlanılmışdır.

Öz elmi-tədqiqatlarını uğurla davam etdirən V.Əsmətov 1994-cü ildə namizədlik, 2008-ci ildə isə doktorluq dissertasiyasını müdafiə edərək tibb elmlər doktoru elmi dərəcəsini almışdır. O, 2010-cı ildən farmakologiya kafedrasının professoru vəzifəsində çalışır.

2002-ci ildə "Vektor" Beynəlxalq Elm Mərkəzinin keçirdiyi sorğunun nəticəsi olaraq XXI əsrin gənc alimləri nominasiyasının qalibi olmuşdur. O, respublikamızın tarixində ilk dəfə kliniki farmakologiya ixtisası üzrə verilmiş elmlər doktoru diplomunun sahibidir.

2008-ci ildə əcnəbi tələbələrə verdiyi dərin biliyə və səmimi rəftara görə İran İslam Respublikasının Mədəniyyət Mərkəzi tərəfindən fəxri fərmanla təltif olunmuşdur. 2013-cü ildə ATU-nun "Fəxri Fərman"ı və Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçilərinin "Qızıl qələm" mükafatına layiq görülmüşdür.

V.Əsmətovun 130-dan artıq elmi məqaləsi yerli və xarici jurnallarda nəşr olunub. 8 dərs vəsaiti, 7 tədris vəsaiti, 5 elmi publisistik kitab və bir səmərələşdirici təklifin müəllifi, farmakologiya fənnindən tədris proqramının həmmüəllifidir. Professor Musa Qəniyevin yazdığı iki cildlik «Farmakologiya» dərsliyinin elmi redaktorudur. Rəhbərliyi altında bir neçə dissertasiya işi yerinə yetirilir.




2000-2012-ci illərdə farmakologiya kafedrasının müdirinin elmi işlər üzrə müavini olmuş, 2012-ci ildən isə kafedranın tədris hissə müdiridir. Vəli müəllim bu illər ərzində çox gözəl təcrübə dərsləri aparan və mühazirə deyən müəllim kimi tələbələrin sevimlisinə çevrilmişdir. O, tələbələri kafedramızda ən çox tələbə elmi işinə cəlb edən müəllimdir.

Vəli müəllim istedadlı alim oimaqla yanaşı, həm də üç övladın qayğıkeş atası və iki şirinşəkər nəvənin sevimli babasıdır.

Bu günlərdə hörmətli həmkarımız Vəli Əsmətovun 55 yaşı tamam olur. Onu kollektiv adından səmimi qəlbdən təbrik edir və gələcək işlərində yeniyeni nailiyyətlər arzulayırıq.

**Farmakologiya kafedrasının əməkdaşları**

# TEC-in xarici dillər bölməsi üzrə keçirilən XXXXV konfransı

**Stomatologiya fakültəsinin xarici dillər bölməsi üzrə keçirilən XXXXV konfransı açan xarici dillər kafedrasının Tələbə Elmi Cəmiyyətinin sədri, dosent Rəna Hüseynova məruzəçiləri təbrik edərək onlara çıxışlarında uğur dilədi. Konfransda 28 məruzəçidən 20 nəfərin məruzəsi dinlənildi.**

Sərbəst çıxış edən bu tələbələr kompüter görüntüləri ilə mövzuya uyğun öz fikirlərini auditoriyaya çatdıraraq sualları düzgün cavab veriblər. Sonda çıxışları ilə fərqlənən tələbələr diplom və sertifikatlarla təltif olunublar.

Konfransa yekun vuran kafedranın müdiri, professor Zemfira Məmmədova tələbələrin keçən konfranslarda çıxışları ilə müqayisədə onların elmi




Münsiflər heyətinin səsverməsinin nəticələrinə görə 782[a] qrup tələbəsi Fidan Babayeva, 317[a-16] qrup tələbəsi Günel Sərdarova, 317[a-23] qrup tələbəsi Meltem Yılmaz, 317[a-19] qrup tələbəsi Ceyhun Məmmədrzayev və 117[a-11] qrup tələbəsi Tünzalə Bayramova diploma layiq görüldülər. Qeyd etmək lazımdır ki, xarici dildə işə həvəsinin daha da artdığını və bu işin təşkilində tələbə elmi dərnəyinin rəhbəri, dosent R.Hüseynovanın zəhmətini xüsusi qiymətləndirdi. O, elmi rəhbərlərə və münsiflər heyətinin üzvlərinə konfransda aktiv iştiraklarına görə minnətdarlığını bildirdi.

# TEC konfransında iştirak etmiş tələbələrlə görüş keçirildi

**Şüa diaqnostikası və şüa terapiyası kafedrasında Tələbə Elmi Cəmiyyətinin (TEC) konfransında iştirak etmiş tələbələrlə görüş keçirilib.**



Kafedranın həkim və tələbələrinin iştirak etdiyi görüşdə çıxış edən kafedra müdiri, dosent Məlahət Sultanova bildirib ki, konfransa təqdim edilən 11 işdən 3-ü mükafata layiq görülüb.

M.Sultanova tələbələrə və onların elmi rəhbərlərinə bu nailiyyətlərinə görə öz təşəkkürünü bildirib, onlara bu yolda uğurlar arzulayıb.

Görüşün davamında qaliblərin adları da açıqlanıb. Nihad Hüseynli I, Yelmar Qaraşov II, Gülgəz Ələkbərova isə III yeri tutublar.

Sonda kafedra tərəfindən sertifikat və diplomlara layiq görülmüş tələbələrin mükafatlandırılması olub.

# ATU tələbələri "Teatr əvəzolunmaz mədəniyyətdir" layihəsində

**Azərbaycan Tibb Universitetinin tələbələri mütəmadi olaraq mədəni tədbirlərdə iştirak edir, mədəniyyət aləmindəki yenilikləri izləyirlər.**



Bu yaxınlarda ATU-nun Tələbə Gənclər Təşkilatının (ATU TGT) təşkilatçılığı ilə tələbələr Gənc Tamaşaçılar Teatrında məşhur Azərbaycan ədibi və dramaturqu Hüseyn Cavidin "Şeyx Sənan" əsərinin tamaşasını izləyiblər. Gənclər "Teatr əvəzolunmaz mədəniyyətdir" layihəsi çərçivəsində xoş bir həftəsonu keçiriblər.

Layihə ATU TGT-nin tərkibində fəaliyyət göstərən Layihələr departamentinin təşəbbüsü əsasında reallaşdırılıb. Layihə ilə bağlı materiallar #TeatrMədəniyyətdir heştəqi ilə sosial şəbəkələrdə paylaşılır.

**ATU-nun mətbuat xidməti**

# Korrupsiyaya qarşı mübarizə dövlətimizin prinsipial siyasətidir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə bildirib ki, cəmiyyətin sağlamlaşdırılması, vətəndaşların dövlət idarələri ilə münasibətlərinin saflaşdırılması və şəffaflığı ilə əlaqədar "bütün dövlət idarələrində, xüsusilə vətəndaşlarla təmasda olan dövlət qurumlarında korrupsiyaya və rüşvətxorluğa qarşı çox ciddi mübarizə aparılmalıdır.**



*"Korrupsiya xəstəliklə müqayisə edilməlidir. Başlanğıcda onu müəyyən etmək çətin, müalicə etmək isə asandır, lakin vaxtı gecikdikdə müayinə etmək asan, müalicə etmək isə çətin olur"*

Bu problemlə əlaqədar olaraq ölkə Prezidentinin 5 sentyabr 2012-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş korrupsiyaya qarşı mübarizəyə dair sərəncamı çox böyük əhəmiyyətə malikdir. Bu sərəncamda şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində davamlı həyata keçirilən strategiya nəticəsində ölkəmiz böyük uğurlar əldə etmişdir. Açıq hökumət prinsipləri daim bu strategiyanın ayrılmaz hissəsi olmuş və həyata keçirilən tədbirlər dövlət idarəçiliyində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsini, informasiyanın əldə edilməsində açıqlığın təmin edilməsini, ictimai iştirakçılığın artmasını və vətəndaş cəmiyyəti institutları ilə sıx əməkdaşlığı nəzərdə tutur. Ölkəmiz açıq hökumət prinsiplərinin təşviqi sahəsində beynəlxalq aləmə də öz töhfəsini vermiş və "Açıq Hökumət Tərəfdaşlığı" beynəlxalq təşəbbüsünə ilk qoşulan dövlətlərdən biri olmuşdur.

Bütün qeyd edilən sahələrdə baş verən korrupsiya hallarının ümumi bir nəticəsi də ondan ibarətdir ki, milli mənəviyyat pozulur. Və korrupsiyaya qurşanma ciddi xarakter alırsa həmin cəmiyyətin, millətin gələcəyi barədə hər hansı bir ümidverici fikir söyləmək müşkül olur.

Korrupsiyaya bəraət qazandırmaq olarmı? Korrupsiya fenomenini tədqiq edən bir sıra mütəxəssislərin fikrincə, bəzi hallarda korrupsiyaya bəraət qazandırmaq olar. Bu fikirləri söyləyərkən elə hallardan bəhs edilir ki, həmin hallarda baş verən korrupsiyaya qarşı çıxış etmək çətin olur. Məsələn, faşist Almaniyasında yəhudilər canlarını, ailələrini qurtarmaq məqsədilə rüşvət verib ölkəni tərk edə bilirdilər.

Bir sıra mütəxəssislərin fikrincə, korrupsiyaya ictimai münasibətlərin "yağlayıcı mexanizmi" kimi də baxmaq olar. Məsələn, Fransa tədqiqatçısı Mari Mendras hesab edir ki, "korrupsiya dövlət maşınının nöqsanlarını kompensasiya edən sosial-iqtisadi münasibətlərin özünəməxsus "yağlayıcı mexanizmidir".

Bəzi mütəxəssislərin fikrincə, müasir zamanda korrupsiyaya bəraət qazandırmaq meylləri Samüel Xantinqtonun əsərlərindən başlayıb. O, risk edib belə bir fikir söyləmişdi: "İnkişaf edən demokratiyalarda korrupsiya demokratik xarakter daşıyır. Proteksionizmə görə proseslərdən uzaq olanlar üçün o, iştirak imkanı yaradır... Korrupsiya hesab edilən fenomen, müəyyən dərəcədə, fundamental iqtisadi adaptasiya (uyğunlaşma) prosesinin təzahürüdür".

Əlbəttə, bu tədqiqatçıların fikirləri öz fikirləri olaraq qalacaqdır. Akademik R.Mehdiyevin bu barədə açıqlaması çox dəyərlidir. "Korrupsiya həmişə qaranlığı, tutqunluğu, zülməti sevir. O, belə şəraitdə daha da güclənir, şaxələnir, qol-qanad açır. Bu qaranlıq məkana işıq salanda, orada şəffaf və aydın mühit təmin edəndə korrupsiyanın gözləri tutulur. Bundan sonra o, əlbətdə, özünə yeni qaranlıq yer axtarır. Ona görə də müasir dövrdə azad, şəffaf cəmiyyətin və idarəçiliyin qurulması korrupsiyanın əsas düşməninə çevrilir. Bu isə öz növbəsində həmin orqanların şəffaf işləməsini tələb edir".

Dövlət xidmətlərinin göstərilməsində tətbiq edilən və Birləşmiş Millətlər Təşkilatının 2015-ci ildə "Dövlət Xidmətləri Mükafatı"na layiq görülmüş innovativ "ASAN xidmət" modeli bu yanaşmanın uğurlu nümunəsidir. Açıq hökumət prinsiplərindən biri olan ictimai iştirakçılığın genişlənməsi üçün qanunvericilik bazasını təmin edən "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu və icrası dövlət orqanları yanında ictimai əhəmiyyət kəsb edən qanun layihələrinin müzakirəsində və dövlət orqanlarının fəaliyyətində vətəndaş cəmiyyəti institutlarının daha sıx iştirakını təmin etmişdir.

Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə tədbirlər ölkəmizdə uğurla həyata keçirilir və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması üçün qəti tədbirlər görülməkdədir. Bu tədbirlər eyni zamanda iqtisadi sahədə aparılan islahatlarla tamamlanır və dayanıqlı iqtisadi inkişaf üçün yeni imkanlar yaradır.

"Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın qəbul edilməsi və nəzərdə tutulan tədbirlərin əhatəsi, Azərbaycanda "Açıq hökumət" prinsiplərinin genişlənməsi və korrupsiyanın qarşısının alınması üçün ölkə başçısı tərəfindən mövcud şəraitdə güclü siyasi iradənin ortaya qoyulması növbəti göstərici hesab olunmalıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamından irəli gələn tədbir kimi ATU-nun İctimai fənlər kafedrasında "Hüququn əsasları" fənninin tədris proqramına korrupsiyaya qarşı mühazirə adlı seminar mövzusu əlavə edilib və tədris olunur. Boloniya təhsil proqramının tələbləri çərçivəsində tələbələrə verilən müstəqil iş mövzuları siyahısına antikorrupsiya ilə bağlı mövzular da daxil edilmişdir.

ATU-nun əczaçılıq fakültəsinin magistratura pilləsində təhsil alan tələbələrə "Pedaqoqika və psixologiya" fənləri çərçivəsində antikorrupsiya mövzusunda mühazirə oxunur və seminar məşğələləri keçirilir.

Korrupsiya–vəzifəli şəxslərin öz statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status səlahiyyətlərindən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və s. nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi nemətlərin, imtiyazların və ya güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və ya rədd olunması və yaxud verilməsi yolu ilə həmin vəzifəli şəxslərin ələ alınmasıdır. Həmçinin korrupsiya dövlət və bələdiyyə, qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının məmurlarının, işçiləri və nümayəndələrinin və ya kommersantların və müxtəlif təşkilatlarının işçiləri və üzvlərinin öz statusundan istifadə edərək hər hansı üstünlüklərə nail olunmasıdır.

Korrupsiyaya qarşı mübarizə hüquq sistemlərinin formalaşması ilə əlaqədardır. Nikola Makiavelli əsərlərində korrupsiya barədə yazmışdır ki, "korrupsiya xəstəliklə müqayisə edilməlidir. Başlanğıcda onu müəyyən etmək çətin, müalicə etmək isə asandır, lakin vaxtı gecikdikdə müayinə etmək asan, müalicə etmək isə çətin olur".

Korrupsiya ilə mübarizəyə dair müxtəlif mövzularda ATU-nun tələbələri ilə, həmçinin tələbə yataqxanalarında dəyirmi stol və disputlar keçirilir.

Təhsil müəssisələrində idarəetmə mexanizminin təkmilləşdirilməsi prosesinin tərkib hissəsi kimi aşkarlıq və şəffaflığın artırılması sahəsində uğurlu addımlar atılır.

Universitet rəhbərliyi tərəfindən tələbə-müəllim münasibətlərində şəffaflığın yaradılması üçün dəyərli tədbirlər və islahatlar həyata keçirilir. Tələbələrlə universitet rəhbərliyinin şəxsən ATU-nun rektoru, professor Gəray Gəraybəylinin daima əyani görüşlər keçirməsi xüsusi vurğulanmalıdır. Tələbələrin fikirlərini, rəylərini, təkliflərini sərbəst şəkildə ifadə etmələri üçün bütün tədris korpuslarında rəy qutuları yerləşdirilmişdir. Burada tələbələrin irəli sürdükləri rəy, təklif və fikirlər universitetimizdə yaradılmış İctimai Nəzarət Komissiyası tərəfindən hərtərəfli araşdırılır, öyrənilir və onlara müvafiq tədbirlər görülür.

İmtahanların test üsulu ilə aparılması və mütəmadi test sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi universitet rəhbərliyinin bilavasitə tələbə-müəllim arasındakı münasibətlərin şəffaf və obyektiv olmasına diqqəti yönəltməsidir. Təhsil müəssisəsində şikayətlərin təhlil edilməsi tədris intizamının, tədrisin keyfiyyətinin və onun səmərəliliyinin artırılmasına rəhbərliyin qayğısı kimi dəyərləndirilməlidir.

Korrupsiyaya qarşı mübarizə üzrə təlim modulunun hazırlanması və bu məsələlər üzrə tədris proqramlarının (etik davranış, maraqlar toqquşması, informasiya azadlığı və s.) təşkili çox əhəmiyyətlidir.

Səhiyyədə həkim öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş səlahiyyətləri çərçivəsində insana ehtiramla, vicdanla, humanizim və mərhəmətlilik prinsiplərini rəhbər tutaraq peşəkarlıq səviyyəsində həyata keçirməlidir.

Həkim öz vəzifələrini xəstənin yaşından, cinsindən, irqindən, milliyyətindən, dini əqidəsindən, sosial vəziyyətindən, siyasi baxışlarından, vətəndaşlığından və maddi vəziyyəti də daxil olmaqla başqa mənsubiyyətlərindən asılı olmayaraq yerinə yetirir.

Həkim öz qərar və hərəkətlərinə görə tam məsuliyyət daşıyır. Xəstələrə göstərdiyi yardımın keyfiyyətinin artırılması məqsədilə həkim tibb elminin son nailiyyətlərindən istifadə edərək öz bilik və bacarıqlarını daim təkmilləşdirməlidir.

Həkimin hərəkətlərinə və qəbul etdiyi qərarlara şəxsi və maddi maraqların səbəbləri təsir etməməlidir. Eyni zamanda, insanların haqlı tənqidindən fəaliyyətinin təkmilləşdirilməsində və çatışmazlıqların aradan qaldırılmasında həkim səmərəli istifadə etməlidir.

Həkim vəzifələrinin icrası ilə bir araya sığmayan və onun adına xələl gətirə biləcək, habelə, həkimlik sənətinin nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir. Həkim pasiyentlərə zərər vurmayan, onların ləyaqətini alçaltmayan, vəzifə funksiyalarını həyata keçirməlidir. Həkim pasiyentin şərəf və ləyaqətinə, şəxsi sirr hüququna hörmət etməli, onun və ailə üzvlərinin şəxsi işlərinə qarışmamalı, ona səmimi münasibət göstərməlidir. Həkim həm də öz həmkarlarına hörmətlə yanaşmalıdır.

Həkim digər həkimin peşəkar səriştəsini əsassız olaraq şübhə altına almamalı və onu nüfuzdan salmamalıdır. Peşəkar iradlar əsaslandırılmalı və kollegiallıq prinsiplərinə uyğun olaraq bildirilməlidir.

Hüquqi demokratik dövlət üçün son dərəcə ziyanlı olan korrupsiyanın tarixi çox qədimdir. Müasir qloballaşan dünyada onun fəsadlarının miqyası daha da genişdir. Müstəqillik əldə etmiş dövlətlər bu problemlə daha çox üzləşirlər. Ona görə də korrupsiyaya qarşı mübarizə cəmiyyətin normal inkişafı üçün mühüm şərtlərdən biridir. Son illərdə respublikamızın sosial-iqtisadi inkişafının nail olduğu uğurlar, bilavasitə korrupsiyaya qarşı sistemli mübarizənin nəticəsidir.

Korrupsiyanın əhəmiyyətli dərəcədə məhdudlaşdırılması Azərbaycan dövləti üçün taleyüklü məsələdir. Bu məsələnin öhdəsindən gəlmək üçün ilk növbədə cəmiyyətin bu bəlaya qarşı münasibətində dönüş yaratmaq tələb olunur. Hamımız dərk etməliyik ki, korrupsiya ölkəmizi "əyri güzgülər" ölkəsinə çevirir və nəticədə cəmiyyətimizi düzgün inkişaf istiqamətindən sapdırır. Millətimiz bir çox itkilərə məruz qalır və dünya xalqları arasındakı yarışda uduzur. Korrupsiya ilə mübarizə ilk növbədə hökumətin üzərinə məsuliyyət qoysa da, cəmiyyətdən də seyrçi mövqedən uzaqlaşaraq hücuma keçməyi tələb edir.

**Qoşqar ƏLİYEV,**
*İctimai fənlər kafedrasının müdiri, professor*

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

**Kafedraların assistentləri:**

- Kommunal və qidalanma gigiyenası kafedrası - 1 yer
- Şüa diaqnostikası və terapiyası kafedrası - 1 yer (0,5 vahid)
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer (0,5 vahid)
- Bioloji kimya kafedrası - 1 yer
- Bioloji kimya kafedrası - 2 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**

**Telefon: 597-10-08, 597-41-69, 597-43-23.**

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə!

**2017-2018-ci tədris ilindən başlayaraq, kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə
2. Kadrlar uçotunun şəxsi vərəqəsi
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və qrup həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Xüsusi formada tərtib edilmiş tərcümeyi-halın çap forması və elektron variantı. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifəyə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti, ünvan və telefonu göstərilməlidir.
5. ATU-nun klinika və laboratoriyalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı və surətləri. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti

**Qeyd:** ***ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.***

# Süd vəzisi xərçənginə qarşı yeni preparatın testlərinə başlanılıb

**Çexiya Elmlər Akademiyasının Biotexnologiya İnstitutunun tədqiqatçıları süd vəzisi xərçəngi və şişin bəzi növlərini sağalda bilən maddə icad ediblər.**

AZƏRTAC Çexiyanın "CTK" informasiya agentliyinə istinadla xəbər verir ki, alimlərin fikrincə, "MitoTam" adlanan maddə mitoxondriləri – "hüceyrə elektrik stansiyalarını" sıradan çıxarır və bununla da xərçəng hüceyrələrinin məhv edilməsinə nail olur. Dərmanlara nəzarət üzrə dövlət institutu kliniki tədqiqatların aparılmasına icazə verib.



Yeni dərmanın pasiyentlərə təsirinin öyrənilməsini Praqanın Ümumfakültə Xəstəxanası aparır.

# «Şən və hazırcavablar» yenidən ATU-ya qayıtdılar

**Azərbaycan Tibb Universitetində Azərbaycan və MDB məkanında ən populyar oyunlardan biri sayılan «Şən və Hazırcavablar Klubu» üzrə yeni komanda yaradılıb.**



Klubun yaradıcılarından biri, ATU-nun ictimai səhiyyə fakültəsinin V kurs tələbəsi Bəhruz Həsənovun sözlərinə görə, komandanın bərpasına ötən ilin dekabrından start verilib: "Bu oyunun özünəməxsus şərtləri var və ən əsas tələblərdən biri də komanda oyunu olmasıdır. Bundan əvvəl də ATU-da "Şən və Hazırcavablar Klubu"nun (ŞHK) komandası mövcud olub. Lakin komandanın oyununda fasilə yaranıb. İndi isə bu oyunda yenidən iştirak etmək qərarına gəlmişik. Bizim üçün bu oyun sadəcə yumor deyil, həm də satiradır. Və bu baxımdan komandanın işini daha da gücləndirmək, sayımızı artırmaq niyyətindəyik".

Artıq ATU-da bir ŞHK komandası fəaliyyət göstərir və klub üzvləri ilk işlərini təqdim ediblər. Tələbələr ATU klinikasının Təcili yardım şöbəsində baş verən hadisələrə yumoristik yanaşma ortaya qoyan səhnəciklə çıxış ediblər. Səhnəcik ATU-nun tələbə-müəllim heyəti qarşısında təqdim olunub.

Tədbirdə ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri Cahangir Qasımov, ATU-nun təsərrüfat və təchizat şöbəsinin müdiri Elçin Əlizadə və Həmkarlar İttifaqı Komitəsinin sədr müavini Seymur Hacıyev iştirak edirdilər.

ATU-nun ŞHK komandasının üzvlərini təqdim edirik: ictimai səhiyyə fakültəsinin I kurs tələbələri Naidə Aydınova, Elnur Yunusov, II kurs tələbələri Ülfət Nəzərova, Aidə İsmayılova, Cəmilə Başirli, Sitarə İsgəndərova (Klubun sədri), Nəzrin Ömərli, III kurs tələbəsi Taleh Qasımov, IV kurs tələbələri Zeynəb Bağırova (bədii rəhbər), Pakizə Əhmədova, V kurs tələbələri Təbriz Həsənov (komandanın yaradıcısı), Bəhruz Həsənov, İbrahim Məmmədli, I müalicə-profilaktika fakültəsinin II kurs tələbəsi İlahə Səfərova, II müalicə-profilaktika fakültəsinin II kurs tələbələri Tükəz Məmmədova, Murad Əkbərli, Aynur Bayramova, Türkay Kərimli, hərbi tibb fakültəsinin I kurs tələbəsi Abdulla Hüseynov.

# Tələbələr Hipertoniyaya həsr edilmiş fləşmob keçirdilər



**17 may - Ümumdünya Arterial Hipertoniya ilə Mübarizə Günüdür. Bu münasibətlə Azərbaycan Tibb Universitetinin Tələbə Gənclər Təşkilatının (TGT) təşəbbüsü ilə ali məktəbin həyatında tələbələr tərəfindən fləşmob keçirilib.**

ATU-nun Tələbə Gənclər Təşkilatının sədr müavini Rauf Vəliyevin sözlərinə görə, fləşmobun təşkilində əsas məqsəd tələbələrə və ümumiyyətlə səhiyyə ictimaiyyətinə bu günün vacibliyini xatırlatmaqdan ibarətdir: "Bundan əvvəl də tibb dünyasında qeyd olunan xüsusi günlərlə əlaqədar fləşmoblar keçirmişik. Bu gün 70 tələbənin iştirakı ilə EKQ formalı stobil düzüşlü fləşmob baş tutdu".

Fləşmobun uğurla baş tutmasında TGT-nin aktiv tələbələrindən Azad Kərimbəyli, Cavid Mustafa, Tamilla Qəhrəmanzadə, Minayə Məmmədova, Gülnur Rüstəmovanın xüsusi zəhməti olub. Aksiya iştirakçıları tədbirin təşkilində göstərdiyi dəstəyə görə universitet rəhbərliyinə təşəkkür ediblər.

Qeyd edək ki, Ümumdünya Arterial Hipertoniya ilə Mübarizə Günü bütün dünyada 17 may tarixində qeyd olunur. Arterial hipertenziya – arterial təzyiqin 140/90 mm.c.süt-dan yuxarı qalxması halıdır. Arterial hipertenziya birinci və ikinci dərəcəli olur. Birinci dərəcəli arterial hipertenziya zamanı Hipertoniya xəstəliyi ayrıca bir xəstəlik sayılır, əsas və aparıcı əlaməti arterial təzyiqin qalxmasıdır. İkinci halda isə arterial hipertenziya simptomatik hipertoniya adlanır və bu zaman arterial hipertenziya başqa xəstəliklər nəticəsində əmələ gəlir.

## Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin V kurs, $275^{a}$ qrup tələbəsi Qurbanov Akif Əziz oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, $317^{a-15}$ qrup tələbəsi Tağızadə Pəri Azər qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, $117^{a-5}$ qrup tələbəsi İsmayıllı Günay Tələt qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, $368^{a}$ qrup tələbəsi Yanar Çağla Adnan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, $211^{a}$ qrup tələbəsi İsmayılova Şeyda Toğrul qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, $117^{a-1}$ qrup tələbəsi Hüseynova Aytən Hüseyn qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $76^{a}$ qrup tələbəsi Hüseynova Ayşən Hüseyn qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin IV kurs, $721^{a}$ qrup tələbəsi Yusif Özer İsmail oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin III kurs, $1117^{a}$ qrup tələbəsi Mirəliyev Orxan Əlövsət oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin I kurs, $717^{a-2}$ qrup tələbəsi Səfiyev Cövhər Əli oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın professoru Əhməd Kazımova bacısı

**Gülsəfa xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Latın dili kafedrasının əməkdaşları kafedranın laborantı

**Əliyeva Fitnə Hüseyn qızının**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

II mamalıq ginekologiya kafedrasının əməkdaşları kafedranın assistenti Roide Vezirovaya qaynanası

**Zərifə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ümumi və toksikoloji kimya kafedrasının əməkdaşları kafedranın laborantı Maya Qəmbərovaya anası

**Anaxanım Abdullayevanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi fizika və informatika kafedrasının əməkdaşları Naibə Xəlilovaya qardaşı

**Pənah Xəlilovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Hərbi tibb fakültəsinin kollektivi fakültə rəisinin müavini, t.x.polkovniki Kamandar Həsənova qardaşı

**Hamletin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - $98^{c}$
2-ci mərtəbə,
Tel.: 595-24-97
tibbqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800